**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI akademik Z.M.BÜNYADOV adına ŞƏRQŞÜNASLIQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**AYGÜN AKİF QIZI RÜSTƏMOVA**

# MİLLİ AZADLIQ MÜBARİZƏSİNİN TÜRK NƏSRİNDƏ ƏKSİ

5717.01 - Türk xalqları ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

## A V T O R E F E R A T I

**BAKI – 2017**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Türk filologiyası kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** **Aqşin Əlisəttar oğlu Babayev**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Aydın Müstəcəb oğlu Abiyev**
filologiya üzrə elmlər doktoru, professor

**Ramiz Baxşəli oğlu Əskərov**
filologiya üzrə elmlər doktoru

**Aparıcı təşkilat:** Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Türkdilli əlyazmaların tədqiqi şöbəsi

**Müdafiə** “21___”___06_____2017-cu il saat______də Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdindəki FD.01.151- Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ - 1143. Bakı şəhəri, H.Cavid prospekti 115, Akademiya şəhərciyi, Əsas bina, 7-ci mərtəbə, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat “___”__________2017-cu ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi:** **Zenfira Ədhəm qızı Şıxəlibəyli**
**filologiya üzrə fəlsəfə doktoru**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin I rübü Türkiyənin ictimai-siyasi və ədəbi-mədəni həyatında taleyüklü dəyişikliklərin baş verdiyi mürəkkəb tarixi bir mərhələdir. Balkan (1912-1913) və I Dünya müharibələrində (1914-1918) məğlubiyyətə uğrayan Osmanlı imperiyası süqut etdikdən sonra, türk xalqının böyük oğlu Mustafa Kamalın rəhbərliyi altında Milli Azadlıq hərəkatı nəticəsində ölkə yadelli işğalçılardan (fransız, ingilis, yunan və b.) təmizlənmiş, sultan üsuli-idarəsi ləğv edilərək yerində yeni müstəqil bir dövlət-Türkiyə Cümhuriyyəti qurulmuşdur (1923). Zamanın mürəkkəb tarixi şəraiti kimi, ədəbi-mədəni həyatı da ziddiyyətli idi. Belə ki, daha çox zəngin poeziyası ilə tanınan türk ədəbiyyatında nəsr, xüsusilə də realist nəsr janrları ön plana keçməyə başladı. Bu dönəmin tarixi hadisələrini Milli Azadlıq uğrunda mübarizəni əks etdirən yazıçılar nəsli yetişdi ki, onlar da bu yönümdə dəyərli əsərlər yaratdılar. Halide Edib Adıvarın "Ateşten Gömlek", "Vurun Kahpeye", "Türkün Ateşle İmtihanı", "Dağa Çıkan Kurt ", Aka Gündüzün "Dikmen Yıldızı", Reşat Nurinin "Yeşil gece", "Gizli El", Yakup Kadri Karaosmanoğlunun "Sodom ve Gomore", "Yaban", "Ankara", "Milli Savaş Hikayeleri", Refik Halit Karayın "İstanbulun İç Yüzü ", "İstanbulun Bir Yüzü", Tarık Buğranın "Küçük Ağa", Agah Sırrının "Acılar", Atilla İlhanın "Sırtlan Payı", "Dersaadette Sabah Azanları", Peyami Safanın "Sözde Kızlar" kimi əsərləri dövrün ən ağrılı və aktual problemlərinə həsr olunmuşdur.

Bu dövrün nəsri Milli Mücadiləyə dair tarixi hadisələrin geniş planda təsviri və bu fonda sosial məzmunlu qəhrəmanların taleyi üzərində qurulan nümunələrlə yadda qalmışdır. İlk dövrdə qələmə alınan əsərlərin bir qismində hadisəçilik, yalançı vətənpərvərlik, ifrat millətçilik, hətta bəzən macəraçılıq da ön planda verilirdi. Lakin realist nəsr ustaları mümkün qədər real insan münasibətlərini, cəbhədə gedən mübarizələrin olduğu kimi əksinə səy göstərir, obrazların daxili aləminə dərindən nüfuz etməyə çalışırdılar. Onlar baş verən mürəkkəb hadisələrin, millət və vətən olaraq ölüm-qalım savaşının mahiyyətinə varmaq, yeni-yeni yaranmaqda olan sinfi və milli münasibətləri kəskin münaqişələrdə, konkret hadisələr fonunda yüksək bədii-estetik səviyyədə canlandırmaq prinsipini əsas götürürdülər.

Ədiblər türk xalqının apardığı mübarizənin ədalətli olduğunu vurğulamaq, əsgərlərdə milli ruhu yüksəltmək üçün tarixin dərinliklərinə baş vurur, türkün şanlı keçmişini xatırladırdılar. Bu dövrdən bəhs edən nəsr əsərlərində ölkəni parçalanmaqdan qoruyan qəhrəman türk xalqının əzmkarlığı, milli lider Mustafa Kamal Atatürkün şəxsiyyətinin yaranması, onun irəli sürdüyü "ya istiqlal, ya ölüm!" şüarı, qələbənin qazanılmasında, yeni inqilabi islahatların həyata keçməsi prosesində müstəsna rol oynamışdır.

Mürəkkəb dövrün, xüsusən Milli Azadlıq mübarizəsinin türk nəsrində əksi, yazıçıların yaradıcılıq metodu baxımından ümumi və fərdi cəhətlərinin elmi-nəzəri tədqiqi türk ədəbiyyatı mütəxəssislərinin qarşısında duran aktual problemlərindəndir. Sözsüz ki, problemin həllinin vacibliyini bir də belə bir mühüm amil şərtləndirir ki, Azərbaycan və türk xalqları arasında dinamik inkişafla səciyyələnən ədəbi-mədəni əlaqələrin bugünkü səviyyəsi türk ədəbiyyatının tam genişliyi ilə obyektiv və elmi şəkildə öyrənilməsinə imkan və şərait yaratmışdır.

Bu mövzunun tədqiqi bütövlükdə türk nəsrinin inkişafı qanunauyğunluqlarının öyrənilməsində xüsusi əhəmiyyətə malikdir. Belə ki, bu sahədə aparılan araşdırmalar böyük elmi-nəzəri və praktik əhəmiyyət kəsb edərək ədəbi proseslər dinamikasını, bu və ya digər inkişaf mərhələsində ədəbiyyatın ideya-estetik prinsiplərinin təkamülünü müəyyənləşdirməyə kömək edir. Bütün bu inkişaf prosesi özünün ciddi araşdırmasını gözləyir və geniş tədqiqatı günün aktual vəzifəsinə çevirir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Türkiyə Milli Azadlıq mübarizəsi mövzusunda qələmə alınmış nəsr əsərlərinin ideya-məzmun və sənətkarlıq xüsusiyyətlərini, dövrün hadisələrinin bədii-estetik dərki məsələlərini tədqiq etməkdən, yazıçıların tarixi gerçəklik və bədii şərtilik, obraz və tip, məkan və zaman, vətənpərvərlik kimi problemlərə yanaşma üsulunu araşdırmaqdan ibarətdir. Bu məqsəddən irəli gələn aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- XX əsrin I rübündə türk ədəbiyyatında müraciət olunan əsas mövzular içərisində Milli Azadlıq uğrunda mübarizəsinin işləndiyi nəsr əsərlərinin kəmiyyət və keyfiyyət baxımından səciyyələndirilməsi;

-Türk ədəbiyyatında fərqli ədəbi-ideoloji cərəyanlara mənsub ədiblərin Milli Mücadiləyə münasibətlərinin aydınlaşdırılması və yazıçıların vətəndaşlıq mövqeyinin müəyyənləşdirilməsi;

-Türkiyə Milli Azadlıq mübarizəsinin işləndiyi nəsr əsərlərində bədii şərtilik və real tarixi gerçəklik dərəcəsinin aşkarlanması, təsvir edilən tarixi-xronoloji gerçəkliklərin ictimai-siyasi şəraitə və zamanın həyat həqiqətlərinə uyğunluğunun müəyyənləşdirilməsi;

-Milli Mücadilə nəsrində cümhuriyyətçilik və kamalizm anlayışları-

nın qoyuluşu məsələlərinin təhlili;

-Milli Mücadilə nəsrində xarici və daxili düşmən obrazları, müsbət və mənfi tiplərin səciyyələndirilməsi;

-Milli Mücadilə nəsrində coğrafi məkanların-şəhər, qəsəbə və kəndlərin (əsasən, İstanbul, İzmir və Anadolu ) qarşıdurması müstəvisində tip və xarakterlərin əks-qütblü qüvvələr şəklində inikası məsələsinin aydınlaşdırılması;

-Milli Mücadilə mövzusunun işləndiyi əsərlərdə vətənpərvərlik tərbiyəsi məsələsinin qoyuluşu və bədii həlli üsullarının elmi şərh və izahı.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekt dairəsi Halide Edib Adıvar, Yakup Kadri Karaosmanoğlu, Reşat Nuri Güntekin, Refik Halit Karay, Tarık Buğra, Agah Sırrı, Atilla İlhan, Peyami Safanın bədii nəsri və mövzuya aid əsərləridir. Başqa sözlə, tədqiqatın obyektini türk nəsrində bir sıra yeniliklərin, novator meyllərin müəllfləri kimi çıxış edən bu görkəmli sənətkarların Qurtuluş savaşına həsr edilmiş lirik-psixoloji, yaxud dramatik-psixoloji, sosial məzmunlu, ictimai-tarixi motivlər üzərində qurulan əsərləri təşkil edir.

**Tədqiqatın metodoloji və nəzəri əsaslarını** filologiya elmi sahəsindəki milli və ümumbəşəri dəyərlər, əbəbi-bədii materialın sistemli şəkildə araşdırılması, müasir ədəbiyyatşünaslığın ədəbi mətnlərin təhlilinə dair əldə etmiş olduğu nailiyyətlər təşkil edir. Tədqiqat zamanı tarixilik prinsipinə ardıcıl riayət edilmiş, müasir ədəbiyyatşünaslığın elmi-nəzəri müddəaları əsas götürülmüş, Türkiyə, Azərbaycan və dünya türkologiyasının müvafiq tədqiqatlarının təcrübə və nəticələrindən istifadə edilmişdir.

Tədqiqat işi fərqli araşdırma metodlarını və istiqamətlərini ehtiva edən komparativ üsulla yazılmışdır. Nəticədə, qarşılaşdırılan fərqli ədəbi cərəyanlara və mərhələlərə mənsub ədiblərin, əslində, vahid ədəbi qaynağa aid olduqları, hadisə və obyektlərə öz kredolarından yanaşma səbəbindən bir-birinə müxalif göründükləri təsbit edilmişdir. Dissertasiya işinin yazılması zamanı türk ədəbiyyatşünaslığında mühüm xidmətləri olmuş araşdırıcıların tədqiqat işlərinə üstünlük verilmiş, müxtəlif elmi konfransların materiallarına və avtoreferatlara da müraciət edilmişdir.

**Mövzunun tədqiqat tarixi.** İndiyə qədər Azərbaycan türkologiyasında, o cümlədən şərqşünaslığında Türkiyə Milli Azadlıq mübarizəsinə dair ümumiləşdirici elmi-nəzəri tədqiqat əsəri yazılmamışdır. Bununla yanaşı, türk ədəbiyyatı, xüsusilə bədii nəsri haqqında yazılan tədqiqatlarda, türk ədiblərinin həyat və yaradıcılığına həsr edilmiş monoqrafiyalarda, araşdırma xarakterli əsərlərdə dissertasiyanın obyekti olan mövzuya, onun elmi-nəzəri məsələlərinə, sənətkarlıq xüsusiyyətlərinə pərakəndə şəkildə olsa da toxunulmuş, qiymətli fikirlər söylənmişdir.[1]

Türkoloq alimlər A.Abıyev, A.Babayev, Ə.Rəsulov, J.Əliyeva, X.Quliyeva-Qafqazlı, B.Osmanova, S.Qasımlı, S.Gündoğdu, R.Quliyev, A.Xəndan, F.Dursunova, E.Məmmədova və digərlərinin türk ədəbiyyatının ümumi məsələləri, habelə Milli Azadlıq mübarizəsinə dair fikir və mülahizələrindən istifadə olunmuşdur.

Türkiyədə Niyazi Aka, Şerif Aktaş, Kenan Akyüz, Bekir Sıtkı, Fahri Belen, Osman Gündüz, Ömer Türkeş kimi tanınmış ədəbiyyatşünas-alimlər Milli Mücadilə nəsrinin araşdırılması və öyrənilməsində xeyli iş görmüş, qiymətli tədqiqat əsərləri qələmə almışlar.

Dissertasiyanın yazılışında dünyanın şərqşünas-türkoloqları S.Uturqauri, L.Alkayeva, N.Ayzenşteyn, R.Fiş, V.Qarbuzova, B.Qordlevskiy, T.Məlikli, E.Maştakova, eləcə də bolqar-türkoloqaları İbrahim Tatarlı və Rza Mollofun mövzuya dair dəyərli araşdırmaları nəzərdən keçirilmiş və münasibət bildirilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işi tarixi bir dövrün türk nəsrində əksinə həsr olunub və bu elmi tədqiqat işi bu sahədə Azərbaycan ədəbiyyatşünaslığında, o cümlədən şərqşünaslığında ilk monoqrafik araşdırma-

---

[1] Əhmədov Ə., İsmayılov Q. Türk romanının tədqiqi. // Azərbaycan SSR EA-nın Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası, 1977, №1, s.123-125; Əhmədov Ə. Rəşad Nurinin romanları. Bakı: Azərnəşr, 1965, 172 s; Əhmədov Ə. Xalidə Ədibin romanlarında milli azadlıq hərəkatının əksi. Az. SSR EA Xəbərləri (Ədəbiyyat, dil və incəsənət seriyası), Bakı: 1974, №4, s.25-36; Əliyeva R. Rafiq Xalid Qaray və onun "Məmləkət hekayələri". // Dil və ədəbiyyat beynəlxalq elmi-nəzəri jurnal, BDU, № 3(74), 2010, s.134; Qasımlı S. Yeni türk hekayəçiliyinin formalaşması (50-60-cı illər). // Şərq filologiyası məsələləri (4-cü buraxılış). Bakı: Əli Nəşr.Evi, 2009, s.577-595; Qasımlı S. Yeni türk hekayəçiliyinin təşəkkülü. // Şərq filologiyası məsələləri (5-ci buraxılış). Bakı: "Bakı Çap Evi", 2010, s.303-323; Quliyev E.Türkiyə türk ədəbiyyatı(XIX-XX əsrlər). Bakı: Orxan, 2003,122s. ; Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı:conant empary, 2011,568 s.; Quliyev R. Nazim Hikmətin bədii nəsrində Şərq. // Şərq filologiyası məsələləri (3-cü buraxılış). Bakı: Əli Nəşriyyat Evi, 2009, s.596-602; Qurbanov A. Məhmət Akif və onun "İstiqlal Marş"ı. Bakı: "Füyuzat", №2, 2011, s.24-29; Xəlilova E. Yaqub Qədrinin hekayələrində milli mübarizənin əksi. // Şərq filologiyası məsələləri (6-cı buraxılış), 2012, s.497-509; Xəlilova E. Yaqub Qədri haqqında. Azərbaycan şərqşünaslığı. Bakı: №1, 2009, s.43-45

dır.

Dissertasiyada Milli Qurtuluş dövrü türk yazılı ədəbiyyatının ədəbi növləri şəkildə araşdırılmış, azadlıq mübarizəsinin epik, lirik və dramatik növlərin müxtəlif janrlarında təcəssümünə münasibət bildirilmiş, türk ədiblərinin vətəndaş mövqeyi açıqlanmış, ədəbi qəhrəmanlar, bədii tiplər tədqiq obyektinə çevrilmişdir. Fərqli ədəbi cərəyanlardan olan ədiblərin Milli Qurtuluş savaşına olan münasibəti bütöv bir şəkildə izlənilmiş, nəticə etibarı ilə onların müharibəyə konseptual münasibətləri müəyyənləşdirilmişdir. Tədqiqat işində cəmiyyət, fərd, ordu və xalq münasibətləri üzvi vəhdət şəklində nəzərdən keçirilmişdir. Təqdim edilən monoqrafiyada Milli Qurtuluş nəsri cümhuriyyət ədəbiyatının təşəkkül dönəmindən çağdaş zamana qədər zaman kəsimində tədqiqata cəlb edilmişdir.

Tədqiqat işində müharibə, xalq hərəkatı və vətənpərvərlik mövzusu bədii-inikas planında aydınlaşdırılmış və zəngin faktiki materiallar əsasında bu mövzudakı nəsr əsərlərinin qaynaqları, obraz və qəhrəmanların prototipləri təsbit edilmiş, konkret nümunələrə söykənərək bu əsərlərin nəzəri-estetik məsələləri və sənətkarlıq xüsusiyyətləri şərh olunmuşdur.

**İrəli sürülən elmi-nəzəri müddəalar:**

1. XX əsrin birinci rübündə Osmanlı imperiyasında yaranmış ağır iqtisadi-siyasi böhran, katastrofik hərbi vəziyyət ölkənin əcnəbi dövlətlər tərəfindən işğalı ilə nəticələndi. "Ya istiqlal, ya ölüm" seçimi qarşısında qalmış türk milləti Atatürkün komandanlığı ilə "Kuva-yi Milliye" adlanan xalq ordusu yaratdı. Bu ordu ilə bərabər qurtuluş ədəbiyyatı epopeyası təşəkkül tapdı.

2. Milli Mücadilə dövrü türk ədəbiyyatının ən bariz nümunələri müxtəlif ədəbi cərəyanlara mənsub türk ədibləri tərəfindən yaradılmışdır. Onların ilk sırasında "Sərvəti-fünun", "Fəcri-ati", "Gənc qələmlər" birliyi və cümhuriyyətçilər gəlirlər.

3. Milli Qurtuluş mübarizəsini əks etdirən ədəbi əsərlər üç mərhələdə yazılmışdır. Birinci mərhələ, Türkiyənin təkpartiyalı dövrünü əhatə edir və 1950-ci ilədək sürmüşdür. İkinci mərhələ, Türkiyənin çoxpartiyalı dövrə qədəm qoymasından hərbi çevrilişə qədərki dövrdür. Üçüncü mərhələ, yaşadığımız dönəmdən ibarətdir.

4. Azadlıq uğrunda amansız və qeyri-bərabər döyüşlərin əsl qəhrəmanı bütün məhrumiyyətlərə, əzab və çətinliklərə şərəflə sinə gərmiş türk xalqıdır.

5. Milli Qurtuluş savaşını əks etdirən bütün türk əsərlərində Ankara azadlığın simvolu, Atatürk isə azadlıq mücahidlərinin yenilməz komandanı kimi təsvir edilir.

6. Milli Qurtuluş ədəbiyyatında türk qadınları, taleyinə, yüz illərə dayanan feodal-patriarxal adətlərə boyun əyməyən mübariz ruhlu, cümhuriyyət tərəfdarı insanlar kimi əks olunur. Yeni ruhlu insanların yetişməsində milli ruhlu ziyalıların rolu xüsusi vurgulanır.

7. Milli Qurtuluş ədəbiyyatında zənginlərin və ruhanilərin əksəriyyəti cümhuriyyət əleyhdarı kimi təqdim olunur. Onlar, milli müstəqillik düşüncəsindən uzaq, şəxsi mənafeyi naminə istənilən haqsızlığı gerçəkləşdirməyə hazır antipod olaraq təsvir edilmişlər.

8. Milli Qurtuluş ədəbiyyatında kamalizm ideyaları hakimdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiyanın başlıca müddəa və nəticələrindən nəzəri baxımdan XX əsr türk ədəbiyyatı tarixinin araşdırılması və yazılmasında, bütövlükdə tanınmış türk sənətkarlarının həyat və yaradıcılığına dair monoqrafik kitabların hazırlanmasında istifadə oluna bilər. Təcrübi baxımdan tədqiqat işindən ali məktəblərin şərqşünaslıq və filologiya fakültələrinin proqram, dərslik və dərs vəsaitlərinin tərtibində yararlanmaq mümkündür.

**İşin aprobasiyası.** Tədqiqat işi Bakı Dövlət Universitetinin Türk filologiyası kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas məzmunu, elmi müddəa və nəticələri dissertantın tematik toplularda, Respublikamızda və xaricdə nəşr edilən müxtəlif elmi-nəzəri jurnallarda dərc olunmuş məqalələrində, elmi-praktik konfranslarda məruzə və tezislərində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## Dissertasiyanın qısa məzmunu

**"Giriş"**də tədqiq edilən mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, tədqiqat tarixi, məqsəd və vəzifələri, metodoloji və nəzəri əsasları, elmi yeniliyi, irəli sürülən elmi-nəzəri müddəaları, nəzəri və təcrübi əhəmiyyəti, işin aprobasiyası və quruluşu göstərilir.

I fəsil **"Türkiyə Milli Mücadilə nəsrinin təşəkkülü və inkişaf mərhələləri"** adlanır. Bu fəsil iki bölməyə ayrılır. **"XX əsrin birinci rübündə Türkiyədə ictimai-siyasi vəziyyət, ədəbi mühit və ədəbi birliklər"** adlı birinci bölmədə göstərilir ki, XX əsr hadisələr baxımından əvvəlki yüzilliklərdən fərqlənir. Bu əsr dünyanın geosiyasi mənzərəsinin dəyişməsi əsridir. Bu yüz ildə insanların Milli Azadlıq mübarizəsi geniş vüsət almış, dağı-

dıcı müharibələr, böhranlar olmuş, yeni müstəqil dövlətlər yaranmış, elmi-texniki və informasiya inqilabları və s. baş vermişdir.

Məlumdur ki, Osmanlı dövləti XX əsrin əvvəllərində bir sıra torpaqlarını itirdi. Dövlət çətin bir durumda qaldığı bir vaxtda 1908-ci il aprelin 13-də Sultan Əbdülhəmidin 32 illik hakimiyyətinə son qoyuldu. İqtidara gələn İttihad və Tərəqqi hökuməti Osmanlı dövlətinin vəziyyətini yaxşılaşdırmaq üçün Rusiya ilə münasibətləri mülayimləşdirməyə səy göstərir, Fransa, İngiltərə və Almaniya ilə ikitərəfli danışıqlar aparır, itirilən torpaqların qaytarılacağına zəmanət almağa çalışırdı.

1914-cü ilin payızı Osmanlı dövləti üçün fəlakətlərin başlanğıcı oldu. Həmin ilin oktyabrın 30-da Rusiya, İngiltərə və Fransa Osmanlı dövlətinə müharibə elan etdilər. Müttəfiq dövlətlərin qoşunları önəmli strateji əhəmiyyəti olan Çanaqqalanı ələ keçirmək, türklərin hərbi qüdrəti olan İstanbulu işğal etmək istəyirdilər. Buna baxmayaraq, Çanaqqala savaşında türklərin qələbəsi düşmənlərin arzusunu gözündə qoydu. Çanaqqala savaşı türklərin döyüş qabiliyyətini bir daha dünyaya göstərdi. Bu döyüşdə türklərin qəhrəmanlığı həm düşmən generallarını, həm də dünyanın siyasi və dövlət xadimlərini heyrətə gətirmişdi. Böyük siyasətçi Uinston Çörçill düşmən qarşısında bir qala kimi dayanan türk ordusunun qəhrəmanlığına heyran qaldıqlarını dilə gətirmişdi.

Yeri gəlmişkən, qeyd edək ki, Çanaqqala və ümumiyyətlə, Osmanlı dövləti tərəfindən döyüşlərdə Bakı, Gəncə, Naxçıvan, Təbriz, Dərbənd və Azərbaycanın müxtəlif bölgələrindən 3 min soydaşımız vuruşurdu.

1918-ci il oktyabrın 30-da Osmanlı dövləti, Antanta dövlətləri ilə Mondros sülh müqaviləsini imzalayaraq Birinci Dünya müharibəsindən çıxır. Rəsmi qaynaqlara görə, Anadoluda Qurtuluş savaşı 19 may 1919-cu ildə Atatürkün Samsuna gəlməsi ilə başlamışdır. Atatürk qısa müddətdə xalq qüvvələrini və xalqa sadiq nizami birlikləri vahid cəbhədə birləşdirə bildi. Milli şüarları “Ya istiqlal, ya ölüm” olan kamalistlər dövlət hüquqla-rını itirmiş Osmanlı dövlətinin türk könüllü qüvvələrini yenidən ayağa qaldırdılar. Mustafa Kamal Paşa 1920-ci ilin sentyabrında Ankarada keçirilən Böyük Millət Məclisinin (TBMM) sədri seçilir, eyni zamanda baş komandan təyiin edilir. Bundan sonra o, ingilis, fransız və yunanlara qarşı ölüm-dirim mübarizəsi aparır və qalib gəlir. Türkiyənin indiki sərhədlərini müəyyən edən Lozanna (1923) müqaviləsi imzalanır. Müqavilə Türkiyəni beynəlxalq aləmdə tanıtdıra bildi. 1923-cü il oktyabrın 29-da Türkiyə Böyük Millət Məclisi (TBMM) Türkiyəni respublika elan etdi. “Türk dünyasının əvəzsiz şəxsiyyəti, böyük öndər, dahi Mustafa Kamal” (Heydər Əliyev) prezident (1923-1938) seçildi.

Milli Azadlıq hərəkatının qələbəsindən sonra, Türkiyədə bir sıra islahatlar keçirildi. 1923-cü ildə Anayasa qəbul edildi. Atatürkün yaratdığı Xalq Partiyası Xalq Cümhuriyyət Partiyası adlandı. Partiyanın proqram sənədində göstərilən altı prinsip-respublikaçılıq, millətçilik, xalqçılıq, dünyəvilik, dövlətçilik və inqilabçılıq ölkənin Avropa dəyərlərinə yaxınlaşmağının göstəricisidir. Bu prinsiplər “Mustafa Kamal inqilabı” adlanır. Onu da bildirək ki, 1934-cü ildə TBBM xüsusi fərmanla Mustafa Kamala Atatürk soyadını verdi.

XIX əsrin ikinci yarısı türk ədəbiyyatı tarixinə yeniləşmə dönəmi kimi daxil olmuşdur. Bu dövr, ümumilikdə “yenileşme dönemi” olaraq tanınır. 1896-1901-ci illərdə nəşr olunan “Servet-i Fünun” dərgisinin redaksiya heyətinin üzvləri “Edebiyyat-i Cedide” adlanan yeni ədəbiyyatın təmsilçiləri olaraq ədəbiyyat tarixində silinməz iz qoymuşlar. 1909-1912-ci illərdə ədəbi fəaliyyətdə olmuş “Fecr-i Ati”dərgisi ətrafında birləşmiş yazarlar “fecriaticiler” adlanırdılar. 1911-1923-cü illər isə türk ədəbiyyatında “milli edebiyyat dönemi” kimi tarixə düşmüşdür.

“Fecr-i Ati” ədəbi birliyi nə qədər tənqidə məruz qalıb, fəaliyyət müddəti qısa olsa da türk ədəbi-ictimai fikir tarixində müəyyən xidmətləri, rolu və mövqeyi ilə xatırlanır. Nəsr əsərlərində ictimai-sosial məsələləri aparıcı mövqedən işıqlandırmaq, hadisələrin məkanını İstanbul xaricinə çıxarmaq, Qurtuluş savaşını, milliyətçilik düşüncələrini geniş planda işləmək milli ədəbiyyatçıların ən böyük ədəbi xidmətləridir.

Bu birliklərin yaranması Milli Mücadilədən yazan müxtəlif baxışlı türk ədiblərinin gələcək yaradıcılıq fəaliyyətinə müsbət təsir göstərirdi.

I fəslin ikinci bölməsi **“Milli Mücadilə dövrü ədəbiyyatının mərhələləri”** adlanır. Milli Mücadilə dövrü ədəbiyyatını şərti olaraq üç mərhələyə bölmək mümkündür. I mərhələ 1920-1950-ci illəri əhatə edir və şef dönəmi adlanır. II mərhələ-1950-1980-ci illərə təsadüf edir, III mərhələ-1980-cı ildən günümüzədək davam edən mərhələdir.

1920-1950-ci illərdə yazılmış əsərlərin çoxu Qurtuluş savaşına həsr olunmuş əsərlərdir. Sonralar maraq azalmış, tədricən təsadüfdən-təsadüfə bu mövzuya müraciət edilmişdir. Lakin buna baxmayaraq, belə qənaətə gəlmək olar ki, Qurtuluş savaşı türk ədəbiyyatında ən çox işlənmiş mövzulardan biridir.

Qeyd olunan mərhələlərdə yaranmış nümunələrin tarixi əsərlər olub-olmaması barədə türk ədəbiyyatşünaslığında mübahisələr mövcuddur. Məsələn, Sadık Kemal Tural türk ədəbiyyatının nəzəri məsələlərinə həsr et-

diyi "Zamanın elinden tutmak" adlı kitabında Qurtuluş savaşına dair yazılmış bəzi nümunələrin tarixi əsər olmadığı qənaətinə gəlr. Başqa bir tədqiqatçı, Gürsel Korat isə bədii əsərlərdə tarixiliyi fərqli şəkildə qəbul edir. Onun düşüncəsinə görə, hər tarixi açıqlayan nümunəni tarixi əsər saymaq olmaz, əgər əsərlərdə tarixi şəxsiyyətlərin fəaliyyətləri və sözləri ön plana keçərsə, bu siyasi təbliğat və reklamdan başqa bir şey deyil. G.Korat bu baxımdan, H.Edibin, Y.Kadrinin, K.Tahirin, R.Enis və başqalarının Qurtuluş savaşı mövzusunda yazdıqları əsərləri Atatürkün təbliği kimi qəbul edir.[2] Əlbəttə, deyilənlərlə qismən razılaşmaq olar. Lakin qeyd edək ki, Qurtuluş savaşından bəhs edən nəsr əsərlərindəki hadisələr Türkiyə həyatından götürülmüş olaylardır və türk tarixinin bir parçasıdır. O ki, qaldı, Atatürkün təbliğinə, Atatürk də Türkiyə tarixinin yaddaqalan, unudulmaz şəxsiyyətidir və bu mübarizədə onun rolu danılmazdır.

Qurtuluş savaşı ədəbiyyatının birinci mərhələsi digər iki mərhələdən çox fərqlənir. Birincisi, bu mərhələdə Atatürk hələ həyatda idi, ikincisi, Qurtuluş savaşından bəhs edən ədiblər həmin hadisələrin canlı şahidi, iştirakçısı idilər və qələmə aldıqları əsərlərin bilavasitə canlı həyatdan almış, Atatürkün nitqlərini dinləmiş, həmin mərhələnin bütün ab-havasında yaşamışdılar. Məsələn, H.Edib cəbhədə tibb bacısı olmuş, bütün olub-bitənlər onun gözləri önündə gerçəkləşmişdir. Bu baxımdan, Qurtuluş savaşından bəhs edən əsərlərdə realizm daha güclü təsir bağışlayır. Həmin mərhələdəki əsərlərdə mövcud olan pafos, məhz bu səbəblə izah edilə bilər. Qurtuluş savaşından bəhs edən əsərlərin əksəriyyətində hadisələr arxa planda verilmiş, din xadimləri və varlılar mənfi obraz kimi təqdim olunmuşdur. Təkcə, yazıçı T.Buğranın "Küçük Ağa" əsəri istisnadır.

Dövrün tələbini duymaq, bu tələbə cavab vermək arzusu, yazıçının müasirliyini təmin edən amillərdəndir. Birinci mərhələyə aid əsərlərdən danışarkən H.Edibin "Ateşten Gömlek", T.Buğranın "Küçük Ağa", Y.Kadrinin "Yaban", "Ankara", R.Nurinin "Yeşil Gece" romanlarını xüsusilə qeyd etməliyik.

İkinci mərhələni əhatə edən əsərlərdən söhbət açarkən Hasan İzzettin Dinamonun "Kutsal İsyan", Reşat Enisin "Despot", İlhan Tarusun "Var Olmak", Tarık Buğranın "Firavun İmanı" və digərlərinin əsərlərini qeyd etməliyik. Bu mərhələnin yaddaqalan romanlarından biri T.Buğranın "Firavun İmanı" əsəridir. Bu əsər müəllifin "Küçük Ağa" romanının davamı kimi də qəbul edilə bilər. Bu əsərdə təsvir olunanların bəziləri, məsələn,

[2] Korat Gürsel. Romanda Tarih. Ankara, Kitaplık, 2009, s.24

Mustafa Kamal, Mehmet Akif, Hüseyn Avni və Çerkez Ethem real tarixi şəxslərdir. T.Buğra tarixi gerçəkliyi obyektivlik prizmasında təsvir etməyə çalışmışdır. Xalqın ağır zamanında da öz milli dövlətçiliyini, müstəqilliyini düşünməsi müqabilində iqtidardakıların faktiki olaraq onları dəyərləndirməməsi yazıçıda təəssüf hissi doğurmuşdur. Əsərdə ermənilər və ingilislərlə yanaşı rus bolşevikləri də düşmənlər sırasında ifşa obyektinə çevrilir. T.Buğranın qənaətinə görə, açıq düşmənlə savaşmaq, gizli düşmənlə mübarizə aparmaqdan asandır.

Milli Mücadilə dövrü ədəbiyyatının üçüncü, çağdaş mərhələsinə aid edilən əsərlər içərisində tanınmış mütəfəkkir, yazıçı Atilla İlhanın "Qazi Paşa" romanı xüsusi önəm daşıyır. Tamamilə tarixi faktlar, şəxsiyyətlər, dövlət münasibətləri əsasında yazılmış romanında heç bir təhrifə yol verilməyib. Atatürk romanda, hətta rəsmi dildə deyil, Rumeli şivəsində danışır, tez-tez "bre" ifadəsi işlədir, "çocuk" yerinə "çucuk", "sakın" əvəzinə "zere","bahçe"yə "harin","tabanca"ya "martini" deyir. A.İlhanın sonuncu əsəri olan "Allahın Süngüleri" Qurtuluş savaşının üçüncü mərhələsinə aid olan əsərdir. Burada 1920-1922-ci illərdə cərəyan edən hadisələr işıqlandırılmışdır. Əsərdə təsvir olunanların əksəriyyəti real həyatda yaşamış tarixi simalardır. Milli Mücadilədən bəhs edən əsərlərin hamısında cümhuriyyət prinsipləri ön planda verilir, onlarda Atatürkün fəaliyyəti qırmızı xətt kimi keçir.

Dissertasiyanın **"Milli Qurtuluş savaşı nəsrinin ideya-məzmun xüsusiyyətləri"** adlanan II fəsli iki bölmədən ibarətdir. İkinci fəslin birinci bölməsi **"Milli Qurtuluş savaşı nəsrində məkan və zaman anlayışı"** adlanır.

Tədqiq olunan əsərlərdə təsvir edilən hadisələr, təbii şəkildə, müəyyən məkanlarda cərəyan edir. Bu məkanlar açıq və qapalı ola bilər. Çox vaxt məkan, sadəcə fon olaraq deyil, həm də qəhrəman kimi də götürülə bilər. Bu mənada, milli mücadilə nəsrindəki məkan bütövlükdə Anadoludur. Anadolu olaraq götürdüyümüz bu məkan türk Milli Azadlıq mübarizəsi nəsrində (qaynaqlarda fərqli variantlara təsadüf etmək mümkündür: "milli mücadele", "istiklal harbi", "kurtuluş savaşı", "milli kurtuluş harekatı") İzmir, Sakarya, İstanbul, Ankara, Samsun və həmin kənd və qəsəbələrində yaşayan insanların vahid məqsəd uğrunda könüllü şəkildə birləşərək düşmənə qarşı mübarizəsi bədii lövhələrlə əks etdirilmişdir. Halide Edib Adıvar, Yakup Kadri Karaosmanoğlu, Tarık Buğra, Aka Gündüz, Reşat Enis, Refik Halit Karay, Falih Rıfkı Atay, Kemal Tahir və onlarca başqa türk ədiblərinin xüsusi diqqət və milli hisslərlə qələmə aldıqları əsərlər həmin

dönəmin bütün acı və mərhumiyyətlərini təfərrüatı ilə canlandıraraq müasir oxuculara keçmişin qəhrəmanlıq dolu hadisələrinə işıq tutur.

Qurtuluş dönəmi ədəbiyyatında fantastik, cənnət, cəhənnəm kimi mifik yerlər də təsvir edilmiş, işğalçı qüvvələrə mənsub olan hərbçilərin yandırıb-yaxdıqları məkanlar cəhənnəmlə, qətlə yetirilmiş məsumların, türk əsgərlərinin qovuşduqları torpaqlar cənnətlə müqayisə edilmişdir. Bütün bunlarla birlikdə, qurtuluş savaşı nəsrində təsvir olunan ədəbi məkanlar konkretdir, Anadoludan bizə məlum olan real yerlərdir. Bununla yanaşı, əsərlərin bir çoxunda məhdud və qapalı məkanlar da təsvir olunmuşdur.

Məkan ədəbi qəhrəmanların davranışlarının, aldıqları qərarların formalaşmasında önəmli rol oynamışdır. Məsələn, Qurtuluş savaşı dönəmini ən yaxşı əks etdirmiş ədiblərdən olan R.H.Karayın 1919-cu ildə qələmə aldığı "Memleket Hikayeleri"ndə acınacaqlı mənzərənin şahidi oluruq. Yakup Kadrinin "Yaban" əsərində Zeynep kadının yaşadığı ev də R.Halitin qələmə aldığı evə bənzəyir. Türk ədibləri lazım bildikləri anda hadisələri qapalı məkandan açıq məkan müstəvisinə keçirərək oxucularda burada da bir vəhdət olduğu fikrini aşılamağa çalışmışlar. Oxucu nəticə etibarı ilə inanır ki, o dönəmlərdə bütövlükdə Anadolu təsvir olunan evlərdən o qədər də fərqli deyil, sanki Anadolu kasıb kəndli evinin nəhəng timsalıdır. Reşat Enisin "Toprak Kokusu" əsərindəki kənd bunun bariz nümunəsidir. Əsərlərdə İstanbul və Ankara xüsusi çəkiyə malikdir. R.H.Karay "İstanbulun İç Yüzü" romanında İstanbulu milli dəyərlərə və adətlərə biganə məkan olaraq təqdim edir. Adı çəkilən müəlliflərdən fərqli olaraq E.E.Talunun "Kan ve İntikam" əsərində İstanbul müsbət planda verilmişdir. Əsərin əsas ideyası milli birlik və bərabərliyin bütün çətinliyə qalib gəlməsinə inam hissidir.

Milli Mücadilə ədəbiyyatında İstanbulun əksinə olaraq Ankara Qurtuluş savaşı illərində müstəqilliyin, azadlığın simvolu kimi təsvir edilir. Y.Kadrinin "Ankara" romanında qurtuluş savaşından öncəki, savaş zamanı və savaşdan sonrakı Ankara qələmə alınmışdır. Azadlıq savaşının rəmzi şəklində canlandırılan Ankara əsərin əsas qəhrəmanıdır. Müəllif Ankara haqqında belə yazır: "... Ankara, vatanın kalbinin attığı kutsal bir şehirdir. Milli uyanış ve zafer, ancaq Ankaradakı mücadeleye bağlıdır".[3]

Milli Qurtuluş illərində məkan olaraq götürülən yerlərdən biri də İzmirdir. İzmir şəhəri 1919-cu ilin may ayının 15-də ingilislərin köməyi ilə yunanlar tərəfindən işğal edilmişdir. İzmirin işğalı bütün türklərə, eləcə də ən çox milli ruhlu ziyalılara, yazıçılara üzüntü və kədər gətirmişdir. Cümhuriyyət dönəminin populyar nasirlərindən biri də Aka Gündüzdür. Onun "Dikmen Yıldızı" romanı çox məşhurdur. Mücadiləyə həsr olunmuş əsərdə yunanların İzmirdə törətdikləri qətliam təsvir olunub. Bu da tarixi faktdır ki, işğalçıların türklərə qarşı amansız və insana yaraşmayan davranışları sadəcə, İstanbul, Ankara və İzmirlə məhdudlaşmır, Bursa yunanlar tərəfindən işğal olunduqdan sonra, vəhşiliklərini burada da davam etdirmişlər. Bu faktı da qeyd edək ki, şəhərin işğalı ilə əlaqədar olaraq Türkiyə Böyük Millət Məclisinin Rəyasət Heyətinin masasına qara örtük sərilmiş və bu qara örtük 1921-ci ilin 11 sentyabrına qədər, yəni, Bursanın işğalçılardan azad edildiyi günədək orada qalmışdır.

Qurtuluş savaşını yetərincə ictimailəşdirən yazıçılardan biri də Halide Edib Adıvardır. Yunanların İzmiri işğal etdikləri gündən başlayaraq H.Edib qələmini süngüyə çevirdi. O, bir yazıçı kimi cəbhələri qarış-qarış gəzir, əsgər və zabitlərlə, Mustafa Kamal Paşa və silahdaşları ilə görüşür, hadisələr haqqında ictimaiyyətə, operativ, dəqiq informasiya çatdırırdı. Onun Üsküdarda və Kadıköydə çoxminlik mitinqdə eksprom çıxışlarında "millətlər dostumuz, hökumətlər düşmanımız" ifadəsi aforizmə çevrilmişdi. H.Edib savaşın bütün mərhələlərinin şəxsi iştirakı və müşahidələri əsasında qələmə aldığı "Ateşten Gömlek", "Kalp Ağrısı", "Zeynonun Oğlu" kimi əsərlərində ustalıqla əks etdirmişdir. Məsələn, Peyaminin gündəliyi əsasında və dilindən təqdim olunan "Ateşten Gömlek" əsərində hadisələr İstanbul, Sultan Ahmet, İzmir, Eskişehir, Ankara və bütün Anadoluda cərəyan etsə də, təsvir olunan mənzərələr bir-birinə bənzəyir. Fərqli məkanların mövcud olduğu Qurtuluş savaşı illərində zaman məsələsi də ədəbi baxımdan çox böyük əhəmiyyət kəsb edir.

Dissertasiyanın II fəslinin ikinci bölməsi **"Milli Qurtuluş savaşı nəsri və vətənpərvərlik mövzusu"** adlanır. Bütün dövrlərdə bu mövzu aktuallığını qoruyub saxlayır. Yazıçılar öz obraz və qəhrəmanları vasitəsilə oxucuda vətənə məhəbbət, öz xalqına hörmət, düşmənlərinə nifrət hissi aşılayır, ölkə vətəndaşlarını vətəni yadellilərdən qorumağa hazır olmağa səsləyir. Etiraf olunmalıdır ki, "Türkiyə milləti ordusunu çox sevir, onu öz idealının qoruyucusu hesab edir". (Atatürk)

Halide Edibin "Ateşten Gömlek", "Vurun Kahpeye", "Dağa Çıkan Kurt", Yakup Kadrinin "Sodom ve Gomore", "Yaban", Refik Halitin "Çete", Tarık Buğranın "Küçük Ağa" və s. əsərlərdə təsvir edilən insanların böyük əksəriyyəti öz doğma vətəninə hədsiz məhəbbət göstərir, onun cəbhədə uğurlarını gördükdə ürəkdən sevinir, düşmənlərinə dərin nifrət

[3] Karaosmanoğlu Yakup Kadri. Ankara, İletişim, 2003, s.49

bəsləyir, hər qarış torpağı göz bəbəyi kimi qorumağa can atır, döyüş bacarığı, igidlik və mərdlik göstərirlər. Onlar işğalçıların göz dikdiyi öz doğma yurd-yuvalarına və adamlara bağlıdırlar, onları xarici və daxili düşmənlərdən öz canları-qanları bahasına qoruyur, bütün güclərini vətənin, xalqın mənafeyi uğrunda mübarizəyə həsr etməkdən qorxmurlar. Yazıçılar bu tip qəhrəmanların hələ kiçik yaşlarından hərbi ruhda böyüdüklərini, türklərin psixoloji, mənəvi və fiziki baxımdan hərbi həyata hazırlıqlı olduqlarını bədii səhnələrlə, təsirli mükalimələrlə, tipik hadisə və əhvalatlarla göz önünə gətirirlər.

Bu da danılmaz faktdır ki, Milli Mücadilə dönəmində sultan hakimiyyətini qoruyub saxlamaq istəyənlər kamalçıların əleyhinə fəaliyyət göstərirdilər. Yakup Kadri elə ilk günlərindən kamalçıları müdafiə edən hekayələr yazmağa başlayır və bunlar öncə, "İkdam" qəzetində yayınlanır, sonralar "Milli Savaş Hikayeleri" başlığı altında nəşr edilir. Hekayələrin içində yer alan yazılardan bir qismi "İzmirden Bursaya" adlanır. Onu da qeyd etmək lazımdır ki, kitabda Yakup Kadri və Yusuf Akçura ile Ege Bölgesini dolaşan Halide Edibin də müşahidələrinə yer verilmişdir" [4]Yakup Kadrinin "Memleket Hikayeleri" başlığı altında "Gənc qələmlər"də dərc olunmuş hekayələrində xalq azadlığı uğrunda mübarizə aparanların mükəmməl surətləri yaradılmış, vətənpərvərliyin qüdrəti özünün parlaq bədii əksini tapmışdır.

Milli Mücadilə nəsrində təsvir olunmuş qadın tipləri o dönəmin psixoloji durumunu daha dəqiq təsəvvür etməyə imkan verir. "Türkiyə Respublikası anlayışına görə qadın bütün Türk tarixində olduğu kimi bu gün də ən möhtərəm, hər şeydən yüksək və şərəfli bir mövcudiyyətdir" (Atatürk). Bu baxımdan, H.Edibin "Ateşten Gömlek" əsərindəki Ayşe obrazı işğalçılar əleyhinə təşkil edilmiş mitinqə qatılır, mitinqçilərin əksəriyyəti kimi o da vətənpərvərlik hissi ilə danışanları dinləyir, alqışlayır. Əslində, əsərdəki Ayşe obrazının prototipi müəllifin özüdür. Yazıçının qələmə aldığı maraqlı surətlərdən biri də ikinci romanı olan "Vurun Kahpeye"dəki Aliye obrazıdır. O, idealist, vətənpərvər bir ziyalı obrazıdır.

Türk qadınlarını, bir qayda olaraq, müsbət planda işləmiş H.Edibdən fərqli olaraq Y.Kadri öz əsərlərində Milli Mücadiləyə xor baxan, onu dəstəkləməyən qadınları sərt tənqid etmişdir. Məsələn, Zeynep ("Yaban"), Leyla ("Sodom ve Gomore") obrazları buna misal ola bilər.

---

[4] Kurdakul Şükran. Çağdaş Türk Edebiyyatı. Cümhuriyyet Dönemi (1923-1959). İstanbul, Broy Yayınları, 1987, s.12

Dinin milli dəyərləri üstələməsi, saxta ruhanilərin ölkəni "yaşıl qaranlığa" sürükləməsi meyli türk yazarlarından Reşat Nurinin "Yeşil Gece" romanında kəskin tənqid olunur: "Medreselerin yeşil gecesi yalnız kendi içlerini karanlığa boğmakla kalmamış, memleketin her yanına yayılmış, her köşesini kaplamış. Zaten bunun başka türlü olmasına da imkan yoktu. Akıllara, vicdanlara şimdiye kadar hep bu medreseden yetişenler rehberlik ediyorlardı. Bu adamlar, memlekete karanlıktan gayri ne götürebilirlerdi ki?[5] Yazıçı ölkənin belə acınacaqlı vəziyyətə düşməsində sultanı günahlandırır. Yazıçı qəhrəmanların dili ilə deyir ki, Vətənin bütövlüyü, milli şərəf məsələsi ortaya çıxdıqda insanın şəxsi həyatı arxa plana keçməlidir, tərsinə düşünən "belələrinə cəmiyyətdə yer olmamalıdır".

Onu da qeyd etməyi lazım bilirik ki, Türkiyə ədəbi-ictimai fikrində milli istiqlal ideyasını yayan parlaq nümunə, milləti mübarizəyə, gələcəyə səsləyən "İstiklal Marşı" şeiri Mehmet Akifin yaradıcılığında mühüm yer tutur. Şeiri bir dastan adlandıran A.Qurbanov yazır ki, bu şeirdə türk millətinin bütün tarixi boyu keçdiyi yolun qəhrəmanlıq dolu tarixini, onun bayrağı və simvollarını, onların müqəddəsliyini, "bayraq", "vətən", "millət" anlayışının vəhdətini, millət və islam əxlaqının birliyini, ucalığını görürük.[6]

Akif Ersoy "İstiklal Marşı"nda Türk millətinin nə üçün vuruşduğunu açıq şəkildə ifadə edir. Şeirin birinci bəndindəki "al sancaq" türk millətinin simvoludur.Türk əsgərinə həsr olunmuş "Milli Marş", sözün əsl mənasında, gəncliyi vətəni sevməyə, onu qorumağa, bir sözlə, vətənpərvər olmağa səsləyir:

Bastığın yerleri "toprak!" diyerek geçme, tanı!
Düşün altındaki binlerce kefensiz yatanı.
Sen şehid oğlusun, incitme, yazıktır, atanı:
Verme, dünyaları alsan da, bu cennet vatanı. [7]

Onu da qeyd edək ki, Çanakkala savaşı mühariblər tarixinə öz adını həkk etmişdir. Bu savaşda türklər dünyaya öz döyüş qüdrətini göstərə bildilər. Həm də bu, Mustafa Kamalın sərkərdəlik qüdrətini sübut edən döyüş oldu. Türk yazarları əsərlərində Çanakkala savaşına mütəmadi olaraq müraciət edirlər. Ömer Çakırın "Türk Harp Edebiyyatında Çanakkale Mektupla-

---

[5] Güntekin Reşat Nuri. Yeşil Gece. İstanbul: Hayat y; 1986, 255 s.
[6] Qurbanov A. Məhmət Akif və onun "İsiqlal Marşı", Bakı, "Füyuzat" jurnalı, 2011, №2, s.29
[7] Mehmet Akif Ersoy. Safahat.Ankara, Kültür Bakanlığı, 1990, s.441

rı" vətən yolunda öz borcunu verən qəhrəman türk əsgərlərinə, dəqiq desək, onların düşmənlərlə vuruşmaq əzmini göstərən məktublardan danışılır. "Analarımız bizi çadırda ölmek için doğurmamıştır"-deyən Mehmet Çavuş Türkiyə Respublikasını yaradan insanlardandır. Bu vətənpərvərlər insanlar öz yurdunun hər qarış torpağına sinəsini sipər edib onu qorumağa, canını verməyə hazırdılar. Onların həyat yolu gənclərdə vətən qarşısında borcunu səngərdə yerinə yetirməyə səsləyir.

**"Milli Mücadilə nəsrində tip və xarakterlər"** adlı III fəsil də iki bölmədən ibarətdir. Birinci bölmədə **"Milli Mücadilə nəsrində obrazlar qalereyası"** təhlilə cəlb edilir.

Ədəbi əsərlərdə diqqəti çəkən və ədəbi əsərlərin dəyərinə əhəmiyyətli dərəcədə təsir edən amillərdən biri obrazların işlənməsidir. Müəllifin yaratdığı obraz o vaxt canlı və dolğun olur ki, o hamını düşündürən böyük ictimai-siyasi, əxlaqi problemləri həll edir, həyata fəal münasibət bəsləyir. Obrazın xarakteri əsərin süjet və kompozisiyasını müəyyənləşdirir. Təbii ki, süjet və kompozisiyasının inkişafı isə müəllifin fikir və ideyasından asılıdır. Nəzərə almaq lazımdır ki, hər bir süjet və kompozisiyası yaradıcılığın özünəməxsus funksiya və predmeti, eyni zamanda başlıca vəzifəsi vardır.

Ədəbi əsərlərdə tipik şəraitdə ümumi cizgilərin daşıyıcısı şəklində hərəkət edən, müəyyən sosial qrup və ya zümrənin təcəssümü olaraq işlənmiş surətlər tip adlandırılır. Tip ədəbi örnək olaraq özündə mənsub olduğu toplumun ümdə davranışlarını əks etdirir. Bu baxımdan, Qurtuluş savaşı dövrünün əsərlərində müəyyən tipləri araşdırmaq, həm də o dövrün müəyyən mentalitetini öyrənmək deməkdir.

Qurtuluş savaşının şəxsən iştirakçısı olmuş H.Edib hadisələri realist baxış açısından qələmə alır. Anadolunun ən strateji nöqtələrində baş vermiş qanlı döyüşləri tibb bacısı, çavuş sifətində müşahidə etmiş yazıçı bu barədə həm "Türkün ateşle imtihanı" adlı xatirə kitabında, həm də bəzi romanlarında əks etdirmişdir.

Milli Mücadilə dövrü türk ədəbiyyatındakı ədəbi xarakterlərdən danışarkən H.Edibin "Ateşten Gömlek" romanındakı Peyami obrazını qeyd etməliyik. Əslində, bu roman Peyaminin hərbi qospitalda müalicə olunduğu qırx üç gün ərzində qələmə aldığı xatirələr əsasında yazılmışdır. Diplomat peşəsini məslək olaraq seçən Peyami Qurtuluş savaşı zamanında vicdanının, qəlbinin səsini dinləmiş, könüllü olaraq cümhuriyyətçilərə qoşulmuşdur. Yazıçı Peyamini ədəbi xarakter səviyyəsinə qaldırır və onu davamlı olaraq inkişafda verir. Kamalçılara qoşulduqdan sonra Peyaminin həyatında əsaslı dönüş yaranır. Müəllif əvvəlcə bütün hadisələrə laqeyd qalan Peyaminin daxili aləminə nəzər salır, onun nə düşündüyünü, psixoloji hiss və həyəcanını işıqlandırır: "Esasen bütün milletlerin kudurmuş gibi, boğaz boğaza, milyonlarca insanı parçalamalarını manasız buluyordum. Hele bizim harbe girmemiz bütün canımı sıkmıştı. Fakat uzun harp seneleri bende yeni bir hiss yapmadı"[8]

Müəllif Peyaminin fərdi mənəvi ləyaqətini, müharibə zamanı onun öz vətəndaşlıq vəzifəsinə münasibətini aydınlaşdırmağa çalışır. Romanın müsbət qəhrəmanları-Peyami, Ayşe və başqaları öz qüvvələrini bütünlüklə düşmən üzərində qələbə işinə sərf edirlər.

H.Edibin ikinci romanı olan "Vurun Kahpeye"dəki Aliye obrazı da vətənpərvər bir qızdır. Aliye kəndə yeni bir hava, parlaq bir işıq gətirir. Bütün çətinliklərə baxmayaraq işindən razı idi, çünki tutduğu yolun doğ-ru-luğuna inanırdı. O, çalışır ki, şagirdləri vətənin layiqli övladı kimi tərbiyə etsin. Aliyedən fərqli olaraq onun məsləkdaşı Hatice obrazı şagirdlərə Qurandan kiçik surələri əzbərlətməklə işini bitmiş hesab edir. Bu epizodda H.Edibin yaratdığı Aliye xarakteri R.Nurinin "Çalıkuşu"ndakı Fərideni xatırladır. O əsərdə də köhnəfikirli Hatice xanım Zeyniler kəndinin şa-gird-lərinə öz bildiyi duaları əzbərlədir.

Əsərin əsas surətlərindən biri də kəndin varlısı Uzun Hüseyndir. Müəllif onun qızların oxumasına, xüsusilə təhsilə münasibətini inandırıcı göstərə bilmişdir. O da C.Cabbarlının "Almaz" pyesindəki Hacı Əhməd tipli adamdır, qızların doqquz yaşından çadraya bürünməsinin tərəfdarıdır. Maarif şöbəsinin sədri və onun arvadı, Hacı Fəttah kimi mənfi tiplər dolğun və real verilmişdir.

Türk ədəbiyyatının tanınmış simalarından biri Tarık Buğradır. Onun qurtuluş savaşına həsr etdiyi iki cilddən ibarət "Küçük Ağa" və "Küçük Ağa Ankarada"əsəri şox məşhurdur. Romanın əsas qəhrəmanı Salihdir. Onun yunan əsilli Niko ilə yaxınlığı, sonralar səhvini başa düşüb, kamalçılara qoşulması müəllif tərəfindən uğurla işlənmişdir. Bizə elə gəlir ki, T.Buğranın təsvir etdiyi Salih xaraktercə, o dövr üçün səciyyəvi olan surət deyil. Onun davranışı, düşüncəsi və hadisələrə yanaşma tərzi fərqlidir. Lakin bütün bunlar olduqca təbii və inandırıcı təsir bağışlayır. Salihin düşüncəsi, əxlaqi baxışları və davranışları fərdi, hadisələrə yanaşması tipik olmasa da, oxucu onu qəbul edir.

Mövzunun aktuallığı, xalqın tarixindən mühüm bir mərhələnin qələmə alınması, dövrün təsviri, hadisələrin tarixi həqiqətə uyğun göstərilməsi, ümu-

[8] Adıvar Halide Edib. Ateşten Gömlek. İstanbul, Atılım, 1984, s.19

miləşdirilmiş surətlər silsiləsi Y.Kadrinin "Kiralık Konak", "Sodom və Gomore", "Ankara" romanlarında öz əksini tapmışdır. Romanlarda mənfi çalarda işlənmiş tiplərin hamısı Avropanı kor-koranə təqlid edən, milli mənsubiyyətlərindən xəcalət çəkən, milli dəyərləri heçə sayan insanlardır. Onu da qeyd edək ki, hələ XIX əsrdə türk ədəbiyyatında bu cür tiplər işlənmişdi.

Belə tiplərdən biri də Y.Kadrinin Qurtuluş savaşına həsr olunmuş "Sodom ve Gomore" romanındakı Leyla obrazıdır. Vaxtını kazino və barlarda keçirən Leyla həm də ifrat ingilis heyranıdır. Leyla oxuduğu romanların təsiri altında milli kökündən uzaqlaşmış bir qızdır. Onun meşşan davranışı, xarakteri oxucularda nifrət oyatmaya bilməz. Romanda təsvir olunan Sami bey, Makbule, Nuriye, Azize, Atif də Leyla tipli insanlardır. Necdet isə onlardan fərqlənir, ürəyi təmiz bu gənc ingilis zabiti Ceksonun ehtiyac qadınına çevrilən Leyladan üz döndərir.

Onu da qeyd etməyi lazım bilirik ki, Milli Mücadiləyə həsr olunmuş əsərlərin çoxunda antiingilis fikri güclü olmuşdur. R.Nurinin "Yeşil Gece" əsərindəki Rasim surəti də Necdet obrazını xatırladır. O da əcnəbilərə qarşı çox aqressivdir, hesab edir ki, işğalçıların varlığı ölkənin mənəvi-əxlaqi dəyərləri ilə bir araya gələ bilməz. Yakup Kadri mücadilə dövrünün bütün daxili varlığını, insanların münasibətlərinin mürəkkəb mexanizmini əsərin qəhrəmanları olan Leyla, Necat, Read, Samir bəy vasitəsilə açıb göstərmişdir.

Y.Kadrinin qələminə məxsus "Yaban" əsərində xalqın tarixində mühüm rol oynamış Atatürkün rəhbərliyi altında ədalətə, əsarətə və cəhalətə qarşı mübarizə aparan Ankara şəhəri dolğun və real verilmişdir. Əsərdə türklərin çox acınacaqlı durumu ilə yanaşı, mövcud durumu dəyişmək uğrunda döyüşən cümhuriyyətçilərdən bəhs olunur.

Bu acınacaqlı mənzərənin hökm sürdüyü məkanda zəngin həyat sürən, hiyləgər, xəsis, ehtiyatlı və mənfur əməlləri ilə yaddaqalan obrazlardan biri Salih ağadır. Y.Kadri əsərdə Salih ağanı mənfi surətlərin ümumiləşdirilmiş tipi olaraq qələmə almışdır. Yazıçı bu kənd sələmçisini belə təsvir edir: "Salih Ağa, bütün köy halkını öyle sihir ve nüfuzu altına almıştır ki, dört yıldan beri, hep benim emrimle hareket etmeğe alışmış olan Mehmet Ali bile, köye geldikten sonra, iktisadi durumumu tayin için bana, bir kere gidip Salih Ağaya danışmamı tavsiye etti".[9] Yazıçı onun qorxaq olduğunu da göstərir. Salih ağa türk ədəbiyyatında yaddaşlara həkk olunmuş tipdir. Milli Mücadilə dövrü ədəbiyyatının mənfi tiplər qalereyasında onun özəl yeri vardır.

[9] Karaosmanoğlu Yakup Kadri. Yaban. Ankara, İletişim, 2001, s.19

III fəslin ikinci bölməsi **"İdeal qəhrəman obrazı-Mustafa Kamal Atatürk"** adlanır. Tədqiqatda qeyd olunur ki, Türkiyə Cümhuriyyətinin qurucusu, "İctimai həyata ilk növbədə mahir bir sərkərdə kimi atılan" (Utkan Qocatürk) Mustafa Kamal Atatürk haqqında sağlığında, ölümündən sonra da çox yazılmışdır. Ruşen Eşref, Halide Edib, Yakup Kadri, Yunus Hadi, Falih Rıfkı, Şevket Süreyya və başqa tanınmış ədiblərin Atatürk haqqında sanballı əsərlər qələmə aldıqları məlumdur.

Türkoloq Ə.Rəsulovun elmi araşdırmalarından öyrənirik ki, Mustafa Kamal adını türk ədəbiyyatına ilk dəfə gətirən, xalqın hələ tanımadığı, gələcəyin bu milli liderini I Dünya müharibəsinin sonlarına doğru "kəşf edərək" türk nəsrinin qəhrəmanına çevirən Ruşen Eşref Ünaydındır (1892-1959). O, yazır ki, Rövşən Əşrəf 1918-ci ildə "Yeni Məcmuə" jurnalının "Çanakkale nüsha-i mümtaze"sində ("Çanaqqala özəl sayı") "Anafartalar Komandanı Mustafa Kamal ilə mülakat" adlı bədii-publisistik yazısında bu dahi türk Əsgərini ilk dəfə oxucuya tanıdır. [10]

Əgər publisistikada Atatürkü oxucuya ilk tanıtmaq şərəfi R. Əşrəfə nəsib olmuşsa, lirika sahəsində bu ilkə M.E.Yurdakul imza atmışdır. Onun "Ordunun destanı" mənzuməsində Atatürk böyük coşqu ilə tərənnüm olunmuşdur. Faruk Nafız Çamlıbel "Kahraman" dramında 1918-1923-cü illərədək hadisələri qələmə almış, Atatürkə sevgi və sədaqətini göstərmişdir.

Onu da qeyd edək ki, könüllü olaraq Anadoluya, ön cəbhəyə getmiş vətənpərvər ədiblər Atatürkdən müsahibələr almış, Milli Mücadilə hərəkatının mahiyyətini və qayəsini birbaşa Anadolu xilaskarının öz dilindən dinləmişlər. Bu baxımdan, yuxarıda haqqında bəhs etdiyimiz R.Eşrefdən başqa, Halide Edib və Yakup Kadri, Milli Mücadilə dönəmi, onun qəhrəmanlarını canlı lövhələrlə qələmə almaq, hadisələri doğru-dürüst təsvir etmək məsələsində, xüsusi bacarığa malikdirlər. Qeyd olunan ədiblər Milli Mücadilə hərəkatının mahiyyətini, səbəblərini, məqsəd və vəzifələrini, ideyası və hərəkətverici qüvvəsini, liderini və həqiqi qəhrəmanlarını qərəzsiz şəkildə, real və milli zəmində təqdim etmişlər.

Həm H.Edibin, həm də Y.Kadrinin əsərlərində onların öz yazar kimliyi də həkk olunmuşdur. Müəlliflər bunu heç gizləməyə də çalışmamışlar. Öz vicdanlarının səsinə qulaq asaraq şəxsi həyatlarını təhlükəyə ataraq Anadoluya gedən, qələmini süngüyə çevirən bu ədiblər, o dönəmin ab-havasını dərindən anlamış, iştirakçıları olduqları hadisələri obyektiv şəkildə qələmə alaraq ictimaiyyəti olub-bitənlərlə tanış etmişlər.

[10] Rəsulov Ə. Türk sənədli-bədii nəsri. Bakı, Elm, Nurlan NRM, 2004, s.359

Y.Kadrinin qələmə aldığı Atatürk obrazında real insan faciəviliyi də vardır. Şəxsi həyatını, səadətini millətinə fəda etmiş Atatürkün, sanki şəxsi həyatı yoxdur. Onun düşüncəsinə vətən, millət, Anadolu insanının xoşbəxt gələcəyi hakimdir. Əsla özünün rifah və mənafeyinə çalışmır, sağlamlığını və həyatını millət yolunda sərf edir. Yeri gəlmişkən, qeyd edək ki, türk ədəbiyyatında Atatürk haqqında ən təsirli əsər yazan ədib Y.Kadridir. Yazar öz əsərlərində Atatürkü mümkün olduğu qədər xalqa yaxın, onun problemlərini dərindən başa düşən rəhbər, torpağa, adət-ənənəyə, milli dəyərlərə sadiq, milli zəminə bağlı, müasir dünya siyasətini anlayan, ölkəsinin tərəqqisi yolunda yorulmadan çalışan rəhbər şəklində təqdim etməyə çalışmışdır. Ədibin "Panorama" adlı əsərində Atatürkün vəfatı son dərəcə təsirli bir dillə qələmə alınır, rəhbərin ölümü də onu xalqdan ayıra bilmir.

Onu da bildirək ki, H.Edibin "Ateşten Gömlek", Y.Kadrinin "Anka-ra", "Sodom ve Gomore", "Yaban" əsərlərində Atatürk obrazı daha canlı və dolğun şəkildə təcəssüm etdirilmişdir. Aka Gündüzün "Dikmen Yıldızı" əsərində isə Atatürk təkcə komandan, dövlət başçısı kimi deyil, həm də gündəlik həyatda məişət qayğıları ilə əhatə olunmuş bir insan kimi təsvir edilir.

Keçən əsrin 50-ci illərindən sonra, işıq üzü görən Tarık Buğranın "Küçük Ağa", Kemal Tahirin "Kurt Kanunu", Hasan İzzetinin "Kutsal İsyan" və digər əsərlərində Atatürk obrazı qabarıq verilir, ulu öndərə fərqli sosial zümrələrin münasibətləri aydınlaşdırılır.

Türkiyənin tarixində Çanaqqala savaşı mühüm yer tutur. Bu baxımdan, Yılmaz Gürbüzün qələminə məxsus olan "Çanakkale Yanarken" romanı da Atatürkü vəsf edən uğurlu əsərlərdən sayılır. Romanda tarixi hadisələr də, əksər surətlər də real, gerçək həyatda olmuş insanlardır. Müəllif haqlı olaraq yazır ki, lidersiz millət, millətsiz də lider yoxdur. Başqa sözlə, roman bütünlükdə türk millətinin dastanı kimi təqdim olunur: "Çanakkale Zaferi Mustafa Kemalın yarattığı bir zafer. Onun komutası olmadan başarılamazdı. Ancak komutanlar ve askerler bir-birini yaratır".[11]

Türk xalqının Milli Mücadilə dönəmindəki qəhrəmanlığı Türkiyə dramaturgiyasında yeni bir mərhələnin, ifadə tərzinin əsasını qoydu. Mücadilə maddi və mənəvi qüvvələri sınaqdan çıxardı, azadlıq mübarizəsinə həsr olunmuş dram əsərləri yeni ifadə imkanları ilə daha da zənginləşdi.

Təbii olaraq Qurtuluş savaşı mövzusu uzun müddət türk teatrlarında aparıcı mövzu olmuşdur. Cümhuriyyətin ilk on ilində bu mövzu gündəmdə duran önəmli mövzu kimi türk dramaturqlarının diqqətini çəkmişdir. Həm mənzum, həm də mənsur şəkildə yazılmış teatr əsərlərinin qəhrəmanları, bir qayda olaraq, Atatürk və onun silahdaşlarıdır.

Galip Naşitin "Destan", Ragıp Nurettinin "Mektepli Çantası" , Vasfi Mahirin "Yaman", Nüzhet Haşim Sinanoğlunun "Bir Zabitin On Beş Günü", Hüsamettin Işının "Atatürke İlk Kurban" , Nahit Sırrı Örikin "Sönmeyen Ateş", Aka Gündüzün "Beyaz Kahraman", "Köy Muallimi", "Mavi Yıldırım", Faruk Nafizin "Kahraman", "Ateş" pyes və dramları milli azadlıq uğrunda mübarizəni əks etdirən maraqlı səhnə əsərləridir.

Yeri gəlmişkən, qeyd edək ki, XX əsrin ortalarına qədər yaradılmış dram əsərlərində Atatürk bilvasitə səhnədə yer almır, əsərdəki surətlər ondan bəhs edir, onun portreti göstərilir, əmrləri oxunur, sözləri xatırlanır. 1960-cı ildən sonralar yazılmış əsərlərdə də "Mustafa", "16 mart 1920" (Orhan Asena), "Atatürk" (Turan Oflazoğlu), "Lozan"(Ataol Behramoğlu) və digərlərində Atatürk və qurtuluş savaşının qəhrəmanları fəal səhnə obrazları kimi təqdim olunur.

Yekunda bildirək ki, Türkiyə Respublikasının banisi, görkəmli siyasi və hərbi xadim Mustafa Kamal Atatürkə həsr olunmuş əsərlərdə onun ölkəsinin suverenliyi uğrunda apardığı mübarizə canlı boyalarla verilmiş, Qərb nümunəsi ilə Türkiyədə çağdaş bir hökumət qurmaq arzusu ön planda göstərilmişdir.

**Nəticə.** Dissertasiya işinin "Nəticə" hissəsində ayrı-ayrı fəsillərdə irəli sürülən mülahizələr ümumiləşdirilmiş, aparılan araşdırmalara yekun vurulmuş, əldə olunmuş nəticələr müəyyənləşdirilmiş və elmi-nəzəri müddəalar irəli sürülmüşdür.

**Tədqiqatın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı tezis və elmi məqalələrində öz əksini tapmışdır:**


1. Xalidə Ədib Adıvarın romanları. // "Dil və ədəbiyyat". Nəzəri, elmi-metodik jurnal, №4 (38). Bakı, 2003, s.48-49

2. Milli azadlıq mübarizəsi və Xalidə Ədib Adıvar. // "Şərqşünaslığın aktual problemləri" mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı, 2003, s.283-285

3. Xalidə Ədib Adıvarın türk ədəbiyyatında yeri. // "Dil və ədəbiyyat". Nəzəri, elmi-metodik jurnal, №6 (66). Bakı, 2008, s.199-201

4. Milli dəyərlərə münasibət məsələsi (milli mübarizə nəsrində). //"Dirçəliş XXI əsr" Jurnal, 153-154/2011, s.413-419

5. Cumhuriyet dönemi türk nesrinde halk karakteri. // "Türk dünyası araştırmaları". № 196, İstanbul, 2012, s.229-236


[11] Gürbüz Yılmaz. Çanakkale Yanarken. İstanbul. Marifet Matbaası. 1995, s.19

6. Türkiyə milli azadlıq mübarizəsi nəsrində ziyalı-xalq problemi. //"Filologiya məsələləri" jurnalı, №5, Bakı, 2013, s. 388-393

7. Y.Qədrinin nəsrində milli azadlıq mübarizəsi mərhələlərinə ədəbi baxış. // "Filologiya məsələləri" jurnalı, №9, Bakı, 2013, s. 386-391

8. Характеристика противников республиканста в произведениях на тему национально-освободительной борьбы. // Молодежь Украины в контексте межкультурной коммуникации. Материалы I Международной научно-практической конференций, Днепропетровск, 2015, ст.175-181

9. Türk poeziyasında qurtuluş savaşının inikası. // "Dil və ədəbiyyat". Nəzəri, elmi-metodik jurnal, №1 (93). Bakı, 2015, s.202-205

10.Milli mücadilə nəsrində Anadolu-İstanbul qarşılaşdırılması. // "İslam həmrəyliyi-2017: Reallıqlar və perspektivlər" mövzusunda Respublika Elmi-Metodik Konfransın materialları. Bakı, 2017, s.202-203

**А.А.Рустамова**

# ОТОБРАЖЕНИЕ НАЦИОНАЛЬНО ОСВОБОДИТЕЛЬНОЙ БОРЬБЫ В ТУРЕЦКОЙ ПРОЗЕ

## Резюме

В диссертации в качестве исследовательской задачи ставится изучение национально-освободительной борьбы в Турции через призму ее художественного отображения в турецкой прозе. В научной работе, состоящей из трех глав, показаны актуальность темы, объект исследования, его история, цели, задачи, методико-теоретические основы, научная новизна и практическая значимость.

Предмет исследования диссертации-произведения турецких авторов, отображающие конкретные исторические события прошлого столетия в жизни анатолийского народа, ведущего непримиримую борьбу за свое национальное освобождение. Судьба нации и ее будущего в то время серьезно занимала литературную общественность Турции. Особенно широкий отклик эта проблема получила в произведениях мастеров художественной прозы. В числе авторов, «приравнявших к штыку перо», были такие известные представители турецкой литературы, как Халиде Эдип, Ака Гюндюз, Решад Нури, Рефик Халит,Якуб Кадри, Тарик Бугра, Агах Сырры, Атилла Илган и другие мастера пера.

Своим творчеством и деяниями эти художники слова оказывали большое влияние на развитие турецкой литературы и умонастроения рядовых граждан своей страны. Проповедуя идеи независимости и национального спасения турецкого народа, упомянутые авторы в своих разножанровых произведениях (рассказы, повести, романы) всячески старались уловить биение пульса своего времени и посредством художественно-эстетического осмысления действительности найти решение актуальных и наболевших проблем.

Художественная проза указанного периода прежде всего запоминается широкоплановым описанием исторических событий, на фоне которых авторы прослеживают жизненные перипетии и судьбы своих героев.

Автор исследования особо подчеркивает, что если на ранней стадии авторы некоторых произведений ставили во главу угла событийность, хроникальность изложения, крайний национализм участников борьбы, то впоследствии указанные недочеты сменились правдоподобным описанием событий на поле сражений, стремлением выдвинуть на первый план жизненные человеческие отношения, обратиться к внутреннему миру образов.

Писатели Турции в своих прозаических произведениях стараются убедить читателей в справедливости их борьбы за свое будущее. Чтобы поддержать боевой дух солдат, некоторые авторы намеренно совершают «экскурсы» в героическую историю Турции, словно напоминая соотечественникам о славном прошлом турецкого народа.

В подавляющем большинстве произведений анатолийских прозаиков, посвященных национально-освободительной борьбе, фигурирует личность великого сына турецкого народа, выдающегося полководца Мустафы Кемаля Ататюрка.

Безусловно, одна из особенностей данной темы, подчеркивающей ее значимость, обусловлена сегодняшним уровнем литературно-культурных отношений между двумя братскими народами- Азербайджана и Турции, характеризующихся динамичным развитием и создающих широкие возможности для их объективного и научного изучения.

Исследование данной темы имеет особую важность в свете изучения закономерностей развития турецкой прозы в целом. Так, научные изыскания, ведущиеся в данной области, приобретают сегодня большое научно-теоретическое и практическое значение.

**A.A.Rustamova**

## THE REFLECTİON OF THE NATİONAL LİBERATİON STRUGGLE İN THE TURKİSH PROSE

**Summary**

This dissertation work is dedicated to the reflection of Turkey’s National Liberation Struggle in the Turkish prose at the beginning of the last century. The actuality, research object, research history, aims and objects, methodological and theoretical bases, scientific innovation and importance of the subject are reflected in the research work which consists of three chapters.

When speaking about the writers who have reflected concrete histrical events of the Turkish life – the National Liberation Struggle which is the subject of our research, we firstly mean Halide Edip, Yakup Kadri, Reshat Nuri, Aka Gunduz, Refik Halit, Tariq Bughra, Agah Sirri, Peyami Safa, Attila Ilhani and others.

These craftsmen, literary creativities and activities of whose have great influences in the development of the Turkish literature, have tried to keep the pulse of the day in their works of various genres. They also made efforts for an artistic - aesthetic cognition and salvation of the most painful and topical issues of the era in their stories, narratives and novels.

First and foremost, the prose of this period has been remembered with the description of the wide background of historical events on national crisis and samples founded on the fate of heroes of social content.

The author particularly notes that, at first, events, chronicles, the false patriotism and extreme nationalism were given in the foreground in some penned works. But later, the prose masters strived to reflect real human relations and going on front fight as possible as they were. They tried deeply to despise the inner world of characters.

Turkish writers plunged into the depths of history and reminded the glorious past of the Turks. They did so, to emphasize the fair struggle of the Turkish people and not let the national spirit of soldiers die.

The image of Ataturk–the great son of the Turkish people, prominent commander occupies an important place in most works dedicated to the National Liberation Struggle of the Turkish people.

Today's level of literary and cultural relations, characterized by dynamic development, between Azerbaijani and Turkish peoples is, of course, one of the features contributing to the importance of this issue.

These literary and cultural relations have created opportunity and conditions for the study of the Turkish literature in an objective and scientific way with its full expanse.

The investigation of this issue, as a whole, is of particular importance in the study of Turkish prose development regularities. So that, the studies conducted in this area are of great scientific and practical importance.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ВОСТОКОВЕДЕНИЯ им. акад. З.М.БУНИЯТОВА**

*На правах рукописи*

**АЙГЮН АКИФ кызы РУСТАМОВА**

# ОТОБРАЖЕНИЕ НАЦИОНАЛЬНО ОСВОБОДИТЕЛЬНОЙ БОРЬБЫ В ТУРЕЦКОЙ ПРОЗЕ

5717.01 –Литература тюркских народов

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени доктора
философии по филологии

**BAKI – 2017**